# 1. SÖZÜN BAHAR GÜLLƏRİ

*(Əvvəli ötən sayımızda)*

* * *

Ulduz Qasımın yaradıcılığı ilə bağlı qeydləri onun ilk qələm təcrübələrindən başlamaq təbiidir. Hər hansı bir araşdırıcı, Ulduz Qasımın yaradıcılığını öyrənən hər hansı bir tədqiqatçı onun bu gün üçün sənətkar yetkinliyi mərhələsində olan əsərlərini göydən gəlmiş kimi qavraya bilməz. Ona görə də hər bir müəllifin ilk qələm təcrübələrini bünövrə daşı kimi qəbul etmək təbiidir. Elə bu səbəbdən də Ulduz Qasımın yeniyetməlik, ilk gənclik çağlarında qələmə aldığı yazıların mahiyyətinə varmaq onun yaradıcılığının tendensiyasını, indiki ustadlıq çağındakı sənətkarlıq səviyyəsini xarakterizə edən, yaradıcılığı üçün aparıcı xətt olan cəhətlərini aydınlaşdırmaq üçün vacibdir.

Kimsəyə elə gəlməsin ki, Ulduz Qasımın yeniyetməlik, ilk gənclik çağlarındakı yaradıcılıq nümunələri əsil sənət örnəkləridir. Yox, belə deyil. Heç bizim də məqsədimiz sözə havalı bir istəklə gələn gəncin ilk qələm təcrübələrini sənət əsərləri kimi təqdim etmək deyil. Bu mənada Ulduz Qasımın həm məqalələrinin, həm müəyyən səviyyədə olan publisistik əsərlərini, həm də şeirlərinin dəyəri, gücü onunla ölçülür ki, bu yazılar sözə sevdalı bir gəncin duyğulanmalarının bəhrəsidir.

Kimsə bu qeydlərin içində sözə çiçəkburnu kimi gəlmiş şeirləri oxuyub *"Bu nədir"* deyə hiddətlənə də bilər. Amma məsələnin mahiyyətinə varmalı olsa, bir uşaq qəlbinin, bir yeniyetmənin, ilk gənclik çağlarını yaşayan duyğusal müəllifin misralar arxasında döyünən ürəyini də təsəvvür edə bilər.

Beləliklə, hər hansı bir müasirimizin yazıda, xüsusilə indiki sosial şəbəkə mərhələsinin çiçəkləndiyi, oxumağın çətin olduğu bir dövr üçün Ulduz Qasımın təqdim etdiyimiz ədəbi parçalarında gələcəyin böyük sənət yoluna çıxa biləcək müəllifi görməyini də istərdik.

Ulduz Qasımın yaradıcılıq yolunun 80-ci illərin əvvəllərindən, bir az da dəqiqləşdirsək, hələ orta məktəb illərindən, yəni 70-ci illərdən başlandığını qəbul etsək, onun orta məktəb illərindən üzü bəri, yəni şagirdlik çağlarından üzü bəri yazı sahibi olduğunu da bildirməliyik.

Söz budur ki, Ulduz Qasım yazıya, sözə hələ orta məktəb partası arxasından gəlib. Doğrudur, bu elementi biz artıq qeyd etmişik. Amma indi burada da yeri gəldiyi üçün bir daha təkrar etməyə lüzum gördük.

Filosoflar, yazıya obrazlı münasibət göstərən adamlar qələmi çərtyoj çəkən mütəxəssisin əlində bir cizgi vasitəsi hesab edir. Ağ kağız isə gələcək böyük ideyanı əks etdirən müstəvidir. Bir sözlə, kağız ağ lövhədir. Hər hansı bir müəllif yazı ilə əslində kağızın da taleyini müəyyən edir. Kağızın üzəri yazılmaqla bəlkə də əbədiyaşarlıq haqqı alır; həm yazı yaşayır, həm də kağız. Ulduz Qasımın ilk yaradıcılıq nümunələrinin çap olunduğu zamandan az qala qırx il sonra onun ilk kitabı nəşr olunub; *"Mən aşığam Qarabağda"* (2013). Göründüyü kimi müəllif ənənəvi bayatıda olduğu kimi *"aşiqəm"* demir. Zənnimcə, aşıqlıq aşiqlikdən başlasa da, cəmiyyətin - yəni insanların ruhuna daha yaxın olan aşığı idealizə edir. Sazı olmasa da, sözü olan aşıqdır Ulduz Qasım. O həm aşiqdir, həm də elinin dərdini car eləyən aşıqdır. Aşiqlikdə bir fərdilik var, aşıqlıqda ümumilik var. Demək, Ulduz Qasım ənənəvi bayatıda olduğu kimi *"Mən aşiqəm"* titulunu yox, *"Mən aşığam"* etirafını daha üstün bilir. *"Mən aşığam Qarabağda"* kitabına *"Ön söz"* yazan redaktorun bir neçə cümləsi mənə çox maraqlı göründü: *"Özünü, içini bu ağ müstəviyə tökən qadını mən əlimə keçən o yazılarda, şeirlərdə, gündəliklərdə kəşf elədim. İllərdir ailəmdə, yanımda yaşayan, damarlarımızda eyni qan daşıdığımız qadın haqqında əslində nə qədər az şey bildiyimi, əslində nə qədər yanıldığımı anladım. Neçə yazısı oldu ki, razılaşmadım, etiraz elədim, bu məsələni müzakirə edəndə alovlu-alovlu mübahisə elədiyimiz də oldu. Üslubundan tutmuş mahiyyətinə, günümüzdə nə qədər aktual olub-olmadığından tutmuş, bədiiliyinə qədər hər şeydə haçalandı fikirlərimiz"*. Bəli, elə belə də olmalıdır. Müxtəlif zamanların, ayrı-ayrı dövrlərin adamlarının düşüncəsində fərq tələri ilə hələ məktəbli ikən Cəbrayıl rayonunda çıxan *"Kolxozçu"* qəzetində çıxan yazıları ilə sözlə ülfət bağlamışdı. Əgər belə demək mümkünsə, kənddən rayon qəzetinə yazan şagird-müəllif kimi özünün yazı taleyini müəyyən etmişdi.

* * *

*"Mən aşığam Qarabağda"* kitabında cəmlənmiş şeirlər göstərir ki, Ulduz yazı aləminə müxbirliklə başlasa da, yerli xəbərləri yazıya gətirməklə imzasını mühitə tanıtmaq istəsə də, o, sözə ruh etibarı ilə şair kimi gəlib. Mən deyə bilmərəm ki, onun mətbuatda dərc olunan şeirlərinin hansı əvvəl, hansı sonra yazılıb. Çünki *"Mən aşığam Qarabağda"* kitabında toplanmış şeirlərin sonunda tarixlər göstərilmir. O şeirləri diqqətə çəkirəm ki, həm təkcə Ulduzun poetik düşüncə imkanlarını yox, onun dünyagörüşünü də duymaq, görmək olar. Bu şeirdə Ulduz sanki yeniyetmə olduğuna baxmayaraq, ilk gənclik çağlarının poetik yaşantıları ilə sözə gəldiyi dövrü gözümüzün önünə çəkərək onun necə böyük, hətta belə demək mümkünsə, yaşından böyük düşüncələrlə yaşadığını da görmək mümkündür.



Ulduz hələ dağları sahibsiz gördüyü, Koroğlusunun getdiyi dövrü xarakterizə edəndə heç 20 yaşı da yox idi. Hətta o vaxt heç Qarabağın işğalı kimsənin ağlına da gələ bilməzdi. Buna - Ulduz Qasımın Koroğlusu getmiş yurdun haqqında danışmasına yazıçı öncəgörməsi deyirlər. Daha nə qədər vaxt keçməli idi ki, zaman şahidlik etsin ki, həqiqətən yurdun Koroğlusu insanların ruhundan uçub gedibmiş. Bütöv bir ölkə - dünyaya səpələnmiş 50 milyonluq azərbaycanlının gözü qarşısında Qarabağ işğal olundu. Əlbəttə, siyasətçilər başqa cür şərh edə bilərlər, kimlərsə başqa mülahizələr gətirə bilərlər, hətta öz günahımızı başqa imperiyaların boynuna yıxa bilərik, hətta düşmənin xaricdən, o cümlədən, imperiyadan güc aldığını deyə bilərik. Bəlkə heç səhv də etmərik. Amma bunu yaddan çıxarırıq ki, ruhumuzdan, varlığımızdan Koroğluluq çoxdan çıxıb getmişdi. Koroğluluğu ruhumuza, varlığımıza qaytarmaq üçün ilkinliyə qayıdış, tarixi düşüncəyə dönüş əsas açar ola bilərdi. Təəssüf ki, biz bu açarı da qaytara bilmədik. Və Qarabağ bir qərinədən artıq işğal altında qaldı.

Ulduz Qasım tam mənəvi haqq ilə hələ gənckən, şagirdkən, tələbəykən yazdığı şeiri ilə bizə ruh xəbərdarlığı etmişdi. Bu xəbərdarlıq onu göstərir ki, Ulduz Qasımın varlığına şairliyi haqdan gəlmə idi. Onun yazıçı təbiəti, biidir. Amma Ulduz Qasım indiki yaradıcılıq müstəvisinə həyata aydın, qərəzsiz, səmimi baxışları ilə asan olmayan bir yolla keçib gəlib. Əlbəttə, həyatın çətinlikləri onun da yolunu yumrulayıb. Mənəvi mühitin odu onu da yandırıb. Şaxtası vaxtına, zamanına görə onun da ruhunu tufanlar qarşısında qoyub. Amma hər halda o bu yolları sabitqədəmliklə keçib. Azərbaycanın daxili-siyasi-sosial-iqtisadi problemlərini qərəzsiz müşahidə edib. Gördüklərini, qavradıqlarını düşüncəsindən keçirib, təxəyyülündə yaradıcılıq süzgəcindən keçirdiyi informasiyaya orijinal məna verib. Bir sözlə, yazıçı siyasətçi deyil, siyasətçi yazıçı olmur - tezisini öz yaradıcılığında qədərincə qoruya bilir.

Hər halda Ulduz Qasımın ilk kitabının redaktoru onun istedadını inkar etmir. Əlbəttə, redaktorun haqlı olduğu tərəflər də var. İdeologiya baxımından siyasi sistemin dəyişməsi ilə bağlı Ulduzun bir çox yazılarının mənəvi təsir gücünü itirdiyini də inkar etmək olmaz. Amma bu yazılar Ulduz Qasımın böyük yazıçı kimi arenada görünməsinə aparan yolları göstərmək baxımından maraqlıdır. Biz qətiyyən o fikirdə deyilik ki, bu gün həmin yazılar ədəbi dəyər gücündədir. Amma yazıçının sözə gəlmək yolunda mücadiləsini göstərmək gücündədir.

Ulduz Qasım bu gün çox dəyərli romanlar, povestlər, kəskin sosial problemlər qaldıran söz adamıdır. Elə bu səbəbdən də onun yaradıcılıq yolunu biz ilk qələm təcrübələrindən başlamağı daha vacib hesab etdik. Bir sözlə, Ulduz Qasım ilk qələm təcrübərixi var, həm də dərc olunduğu mənbə göstərilib.

Ulduz Sovet dövrünün düşüncə imkanları sərhədlərində özünün poetik imkanlarını üzə çıxarmağa çalışıb. Həmin dövrdə yazıya gələn hər hansı bir müəllifin yaradıcılıq məhsulları əsasən təbiət mövzusunda ehtiva olunurdu. Və demək, Ulduz Qasım da ilk şeirlərində poetik imkanlarını təbiətin fonunda yazıya gətirməyə çalışır. Sanki özünə dağları həmdərd bilir. Dağlar ona duyğularını bölüşmək imkanı verir. Hətta ulduzların özünü də dağlarla ünsiyyətdə qiymətləndirə bilir. Bu yanaşma ilə onun *"Dağların nə böyük dözümü vardır?"* şeirinə birbaşa nəzər salmaq oxucular üçün də maraqlı olardı:

*Nə heyran dayanıb ulduzlar yenə,*
*Zirvəli dağlarda gözümü vardır?*
*Ah, niyə ayrıdır zirvə zirvədən,*
*Bu yerdə həsrətin özümü vardır?*

*Getdi Koroğlusu, dönmədi geri,*
*Hər dəfə qəlbində bir yara yeri,*
*Kimsəyə açmadı bu böyük sirri,*
*Dağların nə böyük dözümü vardır?*

*Gözəllik bu yeri oylaq eylədi,*
*Gələn vüqarına alqış söylədi,*
*Ovçunun qəlbində yara göynədi,*
*Cığırda ceyranın izimi vardır?*

*Qoşa bulaqların sızlayır axır,*
*Bənövşən sonama nə süzgün baxır,*
*Çəmənlər telinə lalələr taxır,*
*Ulduza deməyə sözümü vardır?*

Bu şeir o vaxt Ulduzun oxuduğu ali məktəbin "Jurnalist" adlı mətbuat orqanında 1 noyabr 1979-cu ildə nəşr olunub. Bütövlükdə şeirə nəzər salanşairlik istedadı ayrı-ayrı misallardakı işartıları ilə qeybdən xəbər verəcək bir şamanın gücünü göstərirdi. Əgər qəbul etsək ki, şairlər ən doğru şamanlardır, onda Ulduz Qasımın elə anadangəlmə şaman olduğunu da etiraf etməliyik.

Tarix göstərdi ki, Ulduz Qasım mənəvi mühitində boy artımını durğunluqla keçirmədi. O, həyatı, mühiti müşahidələri ilə birləşdirə bildi. Orta məktəbdəki oxu istedadını ali məktəbdə daha da inkişaf etdirdi və zaman onun böyük yazıçı olmaq yoluna sədd çəkə bilmədi. İndi yenə qayıdaq Ulduzun ilk qələm çağırışlarına. Yazıya gətirdiyimiz şeir özü bu gənc qızın hansı duyğularla, hansı dünyagörüşü ilə, hansı düşüncə ilə ədəbiyyata gəldiyinə şahidlik edir.

Madam ki, Ulduz Qasımın yaradıcılıq yolunu xronoloji ardıcıllıqla izləyiriksə, onda onun gənclik çağlarının hərəkət ritmini də elə ardıcıllıqla aparmalıyıq. Mətbuatda dərc olunan və bu gün xronikada kifayət qədər müəllif haqqında söz demək imkanı verən şeirlərindən digər nümunələrə də göz yetirmək olar. Sadəcə ona görə yox ki, Ulduz Qasım ədəbiyyata şair kimi gəlib. Bu doğrudur, bunu inkar etmirik. Amma onu da qeyd etmək yerinə düşər ki, Ulduz Qasım dağlara üz tutub duyğularını yazıya gətirəndə, dağlarla Koroğlunu müqayisəyə çəkəndə romantik əhvallı bir gənc kimi görünür və bu da təbiidir. Ancaq axı Ulduzun real həyat düşüncələri də onun poetik əhvalında kifayət qədər ilk gənclik çağlarından özünə yer alıb.

*(Davamı 5-ci səhifədə)*

# 1. SÖZÜN BAHAR GÜLLƏRİ

*(Əvvəli 4-cü səhifədə)*

Ulduz Qasım elə bir ailədə böyüyüb ki, bu ailənin mənəvi sarayı halallıq üstündə qurulub. Ən başlıcası, çoxuşaqlı ailə - səhv etmirəmsə, ailədə çox uşaq olublar - yalnız atanın və ananın qeyri-adi dərəcədə əzəmi gücdə görünən zəhməti ilə yaşam yolu tutub.

Hər hansı bir gəncin hansı yolu seçəcəyi kimlər üçünsə qəribə və təsadüfi görünə bilər. Amma yolu seçənin özünə məlumdur ki, o hansı səbəbdən bu yolu seçib. Yolun isə necə rahat, necə hamar olacağı istəyin qarşısında göstərici deyil. Əsas istəkdir. Həyatdan gələn təsirlə formalaşmış qənaətdir yolu seçən. Ulduzun ilk qələm təcrübələri sırasında qəzet yazıları da az deyil. Artıq biz qeyd etdik ki, onun doğulub-böyüdüyü Cəbrayıl rayonun Mehdili kəndindən, bu kəndin sadə adamlarının həyatından, güzəranından, dolanışığından gələcəyə nikbin baxışlarından bəhs edən yazıları rayon qəzetinə ünvanlanırdı. Hətta Ulduzun ilk yazıları onun işıqlı bir qələm adamı olacağına ümid verirdi.

O vaxt Cəbrayıl rayonunda dövrün tələbinə uyğun formada bir ədəbi klub da fəaliyyət göstərirdi. Bu ədəbi kluba müəllim və əlbəttə, çox istedadlı gənc şair İsmayıl İmanzadə rəhbərlik edirdi. Ulduz ilk qələm təcrübələrini bu ədəbi klubun üzvləri arasında ictimai mühitə çıxarmaq imkanı qazanmışdı.

"Lələdağ gücü" adlı yazının "Kredo" qəzetində görünməsi ilə az qala 30 il bundan əvvəlin xatirələrini canlandıran, yaddaşlarında oyadan cəbrayıllı söz adamları bizə zənglər etdi. "Bu "Lələdağ gücü"ndə görünən yazar bizim Cəbrayılın "Kolxozçu" qəzetində Ulduz İmanova adı ilə yazan müəllifdirmi"? Əlbəttə, artıq yuxarıda qeyd etmişdim. İlk zəng Mirzə Mirimlidən gəldi. Amma sonra Mingəçevirdən İsmayıl İmanzadə də zəng etdi. Vaxtı ilə Ulduzun ilk yazılarını "Kolxozçu" qəzetində oxuduğunu, ədəbi klubun yığıncaqlarında onun şeirlərinin müzakirə mövzusu olduğunu da xatırlatdı.

Düşüncə insan mənəviyyatında torpaq sahəsi kimi də qavranıla bilər. Buraya düşən saf toxumlar cücərmək imkanı tapanda fidanlar boy verər, pərvəriş tapar. Ulduz Qasım da beləcə özünün düşüncə tarlasını becərmək gücündə olub. Onun "Azərbaycan gəncləri" qəzetində dərc olunan "Ananın yolu ilə" adlı kiçik bir zarisovkası dərc olunub. Zarisovka jurnalistikada zamanına görə fəal janr idi. Bu janrda müəyyən obraz özünün həyatı, mühiti ilə birgə tərənnüm olunurdu. Əlbəttə, zarisovka oçerk janrı üçün ilkin mərhələ idi. Ulduzun həmin zarisovkadan son cümlələrini xatırladıram: "*... Aylar, illər bir-birini əvəz edəcək. Tarlaya atılan dünənki kövrək addımlar daha da möhkəmlənəcək. Zəhmətsevər gənc qız əməyi ilə şöhrətlənəcək, ucalacaq. Anası Tavad xala kimi...*". Demək, Ulduzun mənəvi mühitində ana obrazı onun sözlə ilk ülfətindən formalaşmağa başlayıb. Elə bu səbəbdən də onun sonralar ana obrazını ən müxtəlif tərəflərdən xarakterizə edən əsərləri, əsərlərindəki ayrı-ayrı ana məzmunlu pritçaları dərin psixoloji kökləri ilə onun düşüncəsində təxəyyülünün formalaşdığı zamanlarla bağlı idi. Ulduz Qasım atanın və ananın sərhədsiz zəhmətini qədərincə görürdü və onun ata iztirablarını, ana əzablarını, əziyyətlərini görüb yazıya gətirməsi həssas bir gənc üçün təbii ovqat hesab olunmalıdı. Fərq ondadır ki, Ulduz həm də poeziyada ilk addımlarını atan şair idi. O artıq mənəvi mühitini poetik əhvalda yazıya gətirə bilirdi, özü də kifayət qədər istedadla. Onun "Bağışla, ay ana..." şeiri bu məqam üçün çox xarakterikdir:

Bağışla, ay ana, uşaqlıqda mən,  
Hey dəcəl olmuşam, qovğa olmuşam.  
Qatığa süd qatıb, demişəm ayır,  
Deyəsən, bir az da lovğa olmuşam.

Qonşular elə hey haray çəkərmiş,  
Demə mən dəcəlin o vaxt əlindən.  
Onda qorxmamışam bu təbiətin  
Nə fırtınasından, nə də yelindən.

Demə bu kürrüyüm, bu dəcəlliyim,  
Sənin ürəyini yaman sıxırmış.  
Mənim hər sədamla, çılğın səsimlə,  
Kövrək ürəyində şimşək çaxırmış.

Daha əldən çıxıb o günlər, aylar  
Qayğı ümmanında hər vaxt gülmürəm.  
Səni dərdə salan o kürrüyümü  
İndi hey gəzirəm, tapa bilmirəm...

Bu şeir Cəbrayıl rayonunun "Kolxozçu" qəzetində, 2 avqust 1980-ci ildə işıqlığa çıxıb. Zənnimcə, tarix də kifayət qədər informasiya verir. Bu o vaxt idi ki, Ulduzun 21-22 yaşı vardı. Və artıq tələbə idi. Yəqin ki, birinci, ikinci kurs tələbəsi ola bilərdi. Həm də bu o zaman idi ki, o artıq ana zəhmətinin də nə demək olduğunu görməyindən başqa, həm də dərk edə bilirdi. Doğrudur, şeirdə Ulduzun uşaqlıq xatirələri əks-səda kimi yazıya gəlir. Onun anasına bir dəcəl uşağın münasibəti kimi duyğuları üzə çıxır. Və, əlbəttə, artıq həm də o zaman keçib, o dəcəllik də arxada qalıb, o vaxt da ötüb. İndi Ulduz həmin dəcəlliklərlə anasına hansı əzabları, əziyyətləri verdiyini də saf-çürük etmək gücündədir.

Ulduz Qasımın ilk kitabında onun ilk yazılarını oxuyaraq təəssüratını xüsusi duyğu ilə qələmə alan həmyaşıdlarının qeydlərinə də rast gəlmək mümkündür. Bu qeydləri Ulduz Qasım adlı müəllifin kimliyini hələ yuvada öz cikkiltisi ilə səs salan balaca quşcuğaza münasibət kimi də qəbul etmək olar. "Sən Ulduzsan" yazısı "Bacım Ulduza" epiqrafı ilə Sevda adlı bir müəllifdəndir. Görünür, jurnalistika fakültəsində onunla birgə oxuyub. Müəllif - bu gün harada olduğunu bilmədiyimiz həmin Sevda 14.07.1980-cü ildə yazırdı: "*Ancaq səmadakı neçə milyon ulduzdan fərqlənirsən! Sən cahandan uzaq, günəşdən parlaqsan! Bütün ulduzlar günəşdən işıq alıb, sənsə günəşin özünə işıq verməsən! Sən elə bir ulduzsan ki, qəlbin, duyan könlün bütünlüklə el-oban üçün yanır. Elə ulduzlar var ki, yer üzündə məlum deyil. Ancaq sən doğulanda hər ürəkdə*



*bir çıraq yandı, dedilər ki, ulduz doğub bu gecə, əbədi ulduz... Sən elə bir ulduzsan ki, bütün azəri qızlarına öz işığınla yol, cığır açırsan. Sən həyatın, insanlığın ulduzusan! Bir zaman şeiriyyatın da ulduzu da olacaqsan!.. Bir zaman sevən qəlblərin, sınıq könüllərin ulduzu olacaqsan!.. Bir zaman cansızlara can verəcəksən... Bunu məhz sənin kimi Ulduz edə bilər. "Leyli"dən incə, "Şirin"dən həssas, "Həcər"dən məğrur... Azəri balası. Odlar yurdu öz odundan ulduz yaratdı, onu həyat varkən qoruyacaqdır!*

*Hələ bunlar son deyil. Şölələn ulduzların neçə bucaqlı, nə həcmdə olduğu dəqiq deyil. Hələ səndə də açılmamış sirli dürlər var, əzizim!*

*Hörmətlə: sənin gələcəyinə inanan, qəlbi ilə şadlanan bacın Sevda*". Bu qeydlər düz 42 il bundan əvvəl yazılıb. Amma bir çox məqamlar sanki Ulduzun özünün həmyaşıdı olan bir gənc tərəfindən bu 40 ilin uzanacağı yolun haralara apara biləcəyi dəqiqliklə göstərilib. Özü də Sevda adlı müəllif öz ədəbi qəhrəmanını, yəni Ulduzu, bir az da dəqiq desək, Ulduz İmanovanı romantikası ilə, sevgisi ilə ilk həyat çırpıntıları ilə birgə tərənnüm edir. O, Ulduzu "Şeiriyyatın ulduzu olacaqsan" deyə tərənnüm edir. Əgər "Şeiriyyatın" sözünü sənətlə, sözlə, yazıçılıqla əvəz etsək həmin müəllifin nə qədər düzgün qənaətdə olduğuna bir daha inanmış olarıq. Ulduzun nəsr dili, yazı dili onun ilk yazılarında kifayət qədər işığını göstərirdi. O, kimdən yazırdısa, nədən yazırdısa, obrazlı münasibətini üzə çıxara bilirdi. Bununla da artıq ruhunda boy verən söz çiçəklərinə kifayət qədər varlığında olan istedadı ilə münbit şərait yaradırdı.

Ulduzun yazıçılığının haradan, necə başlandığını göstərmək üçün ən yaxşı qapı onun ilk, hələ yeniyetməlik çağlarında qələmə aldığı yazıları ola bilər.

Ulduzun "Əməklə döyünən ürəklər" adlı bir yazısı da ilk qələm, söz ünsiyyəti kimi diqqəti calb edir. Əlbəttə, bu yazılarla biz Ulduzu elə həmin yazılarla fenomen kimi göstərmək fikrində deyilik. Amma yazı özü deyir ki, müəllif sözə varlığından gələn bir istəklə bağlanıb. Beləliklə, 42 il bundan əvvəl (10 iyul 1980-ci il) "Kolxozçu" qəzetində dərc olunmuş Jurnalistika fakültəsinin tələbəsi kimi Ulduz İmanovanın həmin yazısını da ən azı xronika xatirinə diqqətə çəkməyi özümüzə borc bildik: "*Açılan hər səhər bu ailəyə yeni ruh, sevinc, fərəh gətirir. Bu ailədə hamı əməyi sevir. Böyük də, kiçik də. Ailəyə Nəriman Xudiyev başçılıq edir. Bu qabaqcıl mexanizator 17 ildir ki, sükan arxasında torpağın altını üstünə çevirir. Nəriman Xudiyevin ömür kitabının səhifələrini vərəqləsək bu mexanizatorun nə qədər mənalı zəhmət yolu keçdiyini görərik. Dəfələrlə layiq görüldüyü fəxri fərmanlar, mükafatlar, təşəkkürlər onun əməyinə verilən qiymətdir. N.Xudiyev 7 ildir ki, kənd sovetinin deputatıdır. "İnqilab" kolxozunun briqadiri Şirin İsmayılov onun haqqında deyir: -Nəriman Xudiyevin bütün işləri tərifə layiqdir. Bu əməksevər mexanizator barədə ən xoş sözləri demək olar. İndi o 95 hektar üzümlükdə becərmə aparır. Tənəklərin zədə almaması üçün ciddi səy göstərir. Nəriman Xudiyev 6 hektar əvəzinə 10-12 hektar sahəni becərir. Gördüyü işin keyfiyyətinə söz ola bilməz.*

*Nərimanın ömür-gün yoldaşı Amanagül Alışova da bütün varlığı ilə əməyə bağlanıb. Yaxşı deyiblər ki, ərlə arvadın suyu eyni bulaqdan götürülür. Amanagül Alışova fəal kolxozçulardandır. Həm də o qəhrəman anadır, 10 uşaq anası. Tərbiyə işi çox ciddi məsələdir. Buna görə də Nəriman Xudiyev və Amanagül Alışova bu haqda deyirlər: -Biz həmişə çalışırıq ki, uşaqlarımızı əməyə kommunist münasibəti ruhunda tərbiyə edək. Bizim övladlarımız əməksevərdirlər. Qızım Əntiqə orta məktəbi qurtardırdan sonra kolxozda işləməyə başlayıb. Pakizə Ağdam kənd təsərrüfatı texnikumunda təhsil alır, aqronom olacaq. Balacalar isə Mehdili kənd orta məktəbində təhsil alırlar.*

*Bu xoşbəxt, əməksevər ailə yaxşı işlədiyi kimi, yaxşı da istirahət edir. Ailənin dörd otaqdan ibarət daşdan evi, hər cür müasir avadanlığı var*". Yazıda ADU-nun jurnalistika fakültəsinin tələbələrinin imzası var; Ulduz İmanova, Sevda Əliyeva. Bu gənclərin 42 il əvvəl düşüncə sistemini göstərən bir mətndir. Əlbəttə, bir çox epitetləri zamana, dövrə şişirdilmiş münasibəti də müşahidə etmək olar və əlbəttə, heç razılaşmamaq da olar. Amma hər halda müəllif kimi zamanın gəncləri zamana informasiyanı da kifayət qədər dolğunluğu ilə çatdıra bilirlər. Yəni 42 il əvvəl siravi bir kolxozçunun indi villa adlandırdığımız evi də vardı, bağ-bağatı da vardı. Dolanışığı da kifayət qədər normal idi. Bu yanaşma ilə indiki zamanı müqayisə etmək və özü də kəskin nəticə çıxarmaq mümkündür. Ona görə də deyirlər ki, yazı ən böyük şahiddir. 42 il əvvəlki və bu gün tanınmış yazıçının düşüncəsindəki dəyişikliyi ən azı müşahidə etmək baxımından da bu mətn dəyərlidir. 80-ci illərin əvvəllərində Ulduzun fəal bir jurnalist mövqeyi yazılarında daha aydın görünür.

Bəlkə də kiməsə bayağı görünər "Mən aşığam Qarabağda" kitabında toplanmış yazılar. Amma tarixi xronika yazıçının mənəvi inkişafını, yaradıcılıq yolunu müəyyən etmək baxımından çox dəyərlidir.

"Ulduz İmanova" imzası ilə "Sovet kəndi" qəzetinin 10 iyul 1984-cü il tarixli sayında "Bir qaragöz oğlan" adlı o qədər də həcmcə böyük olmayan bir yazı var. Bu yazıda səsi ilə ətrafı özünə cəlb edən istedadlı bir gəncdən söhbət açılır. Bu gəncin səsi onun ünvanına çevrilib. Bu məlumatı biz yazıdan götürürük. Amma Ulduz həmin məlumatı yazısı ilə və tam inamla demək olar ki, yazıçı yanaşması ilə belə təqdim edir: "*Məlahətli səsi ilə dünyaya meydan oxuyan bu qaragöz oğlan kimdir? Möcüzə axtaranlar, hikmət axtaranlar gəlib üz-üzə dursun bu səslə, ürəyini açsın bu mahnılara, bu oxumalara. Onda görərsən ki, yavaş-yavaş səni özündən alıb aparır harasa uzaqlara, harasa isti bir müqəddəsliyə, harasa mavi bir ünvana. Bu yerdə dağlar boy-boy boylanır, əlcə-əlcə çəmənlər göyərir, çayın eşqi başına vurur, coşub-daşdıqca daşır, şəlalə süzülüb bir not üstə çalındıqca çalınır. Onun ağıllı, qara gözlərinə baxdıqca görürsən ki, bu gördüyün yerlər eləcə Azərbaycan torpağıdır*". Burada məlahətli səs, şəlalənin not üstündə çağlamağı, ürəyin mahnı ilə döyünməyi, səsin dinləyicini özündən alıb aparmağı, bir sözlə, bir müğənninin yaratdığı auranı təsvir edən bu parçada bir gənc yazıçı görürük. Əlbəttə, o bu məqamlarda özünü yazıçı adlandırmırr. Heç özünü yazıçı kimi də təsəvvür etmir. Amma heç özünün də xəbəri yoxdur ki, varlığında həyatı dörd gözü ilə görə bilən bir yazıçı böyüdür. Bu yazıçı gələcəkdə insanları bütün ağrısı ilə, dərdi ilə, kədəri ilə qavrayacaq, dərk edəcək. Həyatı ağ və qara rəngləri ilə birlikdə qavrayacaq. Amma, əlbəttə, buna hələ xeyli yol var.

Zaman isə tələsmir.

*(Davamı 6-cı səhifədə)*

# 1. SÖZÜN BAHAR GÜLLƏRİ

*(Əvvəli 5-ci səhifədə)*

Yazıçılığa aparan yol müxtəlif müəlliflər üçün fərdidir və hər kəs üçün özünəməxsusdur. Azərbaycan yazıçılarının, şairlərinin, publisistlərinin, bir sözlə, ümumi ifadə etsək, bir çoxunun sənətə yolu jurnalistikadan keçib. Görkəmli şairlər, publisistlər, ədəbiyyatşünaslar arasından çoxları var ki, onlar tədqiqatı da, bədii yaradıcılığı da elə mətbuatda işlədikləri çağlardan başlayıblar.

1959-cu illə bizim bu günümüzü 64 illik bir məsafə ayırır. Bu məsafə həm də Ulduz Qasımın yaşıdır. Yaş isə göllənmiş su deyil, axar çaya daha çox bənzəyir.

Ulduzun Cəbrayıl rayonunda çıxan "Kolxozçu" qəzetində, o cümlədən, respublika miqyaslı "Azərbaycan gəncləri", "Sovet kəndi", "Ədəbiyyat və incəsənət" qəzetlərində dərc olunan yazıları ona Cəbrayılın Ulduzu adını bəxş etmişdi.

80-ci illər Ulduzun qaynar jurnalistik fəaliyyəti dövrüdür. Bu dövrdə o, ardıcıl olaraq mətbuat üçün yazıları ilə özünə kifayət qədər oxucu balansı yığa bilmişdi. Bu da o deməkdir ki, Ulduz öz yazılarında könülləri oxşaya biləcək notlarla musiqi dalğaları yaradırdı.

Bir vaxt Tolstoy deyirdi ki, nə vaxtsa məni yalnız bədii cümlələrimlə xatırlayacaqlar. Ruhunda, varlığında bədiilik, söz yaratmaq gücü olan müəllifin bütöv məqaləsinin içərisində bir neçə cümlə, bəlkə də bir neçə söz bəs eləyir ki, onun ruhunda, təbiətində sözə bədii yanaşma gücünün olduğunu görəsən, anlayasan.

Ulduz 80-ci illərə aid yazılarında bədii notlarla danışmaq təcrübəsi keçirdi. Və hiss olunur ki, həmin yazılarında o, keçid məqamı axtarır. Əslində özünü ifadə üçün çıxış yolu gəzir. Oçerklərində, mətbuat üçün hazırladığı yazılarda təsvirlər, epitetlər onun təbiətindəki bədii emosiya üçün işartılar verir. Elə "Bir qaragöz oğlan" yazısındakı bəzi qeydləri nəzərdən keçirmək bəs edər ki, aradan illər keçəndən sonra həmin dövrə münasibət baxımından yanılmadığımıza bir daha inanaq. Ulduz Qasım gənc və istedadlı müğənni - xanəndə haqqında yazır: *"Bu sədəf kimi şəffaf, duru sözlərdən sonra "Qaçaq Nəbi"nin qeyrət damarlı melodiyaları dalğa-dalğa üzümüzə vurur, babalarımızın qəhrəmanlığı, igidliyi, qeyrəti, kişiliyi haqda əl boyda uşağın çiyələk dodaqlarından süzülən nəğmə bizi dünənimiz, ulu keçmişimizə aparır, qanımızı qaynadır. Yazın bu oğlan çağında baharı bütün varlığımızla sinəmizin altında hiss edirik, başımızı bir az uca tuturuq. Anar Ağayevlə söhbətimiz əvvəl-əvvəl axarına düşmədi. Bir-iki kəlmə deyib susdu. Bəlkə Alıbəyli kəndi yadına düşdü? Elə bil darıxdı birdən-birə, sonra gülümsədi. Yəqin anası Tübanisə xalanı xatırladı. Ana nəfəsi, ana hərarəti isindirdi qəlbini, baxışını. Anar Zəngilan rayonunun Alıbəyli kəndindən ayrılıb Bülbül adına musiqi məktəbinə gələndə bir sinifdə oxuduğu Azərə isnişib. Dərslərini birlikdə hazırlayırlar, birlikdə oturub-dururlar"*. Bir neçə cümlənin içərisində Ulduz həm bədii təsvirə imkan tapır, həm də əlavə informasiyalara. Hətta bir qədər sənətkarlıq baxımından yerinə düşməsə də, qəhrəmanının anasının adını diqqətə çəkir. Arxasınca qəhrəmanının kəndini, rayonunu, hətta onun bir sinifdə oxuduğu Azəri də yada salır. Bütün bunlar, əlbəttə, jurnalistikanın tələbləri ilə bağlıdır, mətbuatın daha çox informasiya istəyi ilə yazıya gəlir. Hər halda Ulduz daha çox informasiya vermək tələbatını verməkdən başqa, imkan tapıb bədii notları da söz musiqisinə çevirə bilir. Doğrudur, yazının davamı ilə biz müəllifin Azərə xüsusi rəğbətini də duyuruq. Bu da təbiidir. Müəllif qəhrəmanına sevgi göstərməsə, heç onu tərənnüm də edə bilməz. Əslində burada sevgini göstərməkdən yox, sevgi duyğularını varlığında yaşatmaqdan gedir söhbət. Ulduz üçün isə sevgi bütövlükdə sənəti ilə bağlı idi. Sabah o başqasından da yazanda yenə qəlb coşqunluğu, ruh çılğınlığı ilə yazısına fon verəcək. Əlbəttə, burada fon görüntü xatirinə deyil. Ulduzun özünün mənəvi mühitinin görüntüsü kimi üzə çıxacaq.

Cüzi fərqlərlə Ulduzun 80-ci illərdə çap olunan bədii portret yazılarını maraqlı hekayətlər kimi oxuyuruq. Şəxsən mənim üçün Ulduzun həmin dövrdəki yazıları 80-ci illərin nostalji duyğularını oyatmaq baxımından çox dəyərlidir.

"Mən aşığam Qarabağda" kitabından daha bir yazı da diqqətimi cəlb edir. Ona görə yox ki, yazı təsirlidir. Ona görə yox ki, bu yazıda da mənim uşaqlıq dünyamın keçib gəldiyi Göyçənin, Dərələyəzin, bir sözlə, tarixi yurdlarımızın ab-havası duyulur. Əsas odur ki, bu yazıda, hətta başlanğıcda belə Ulduzun yazıçılığı görünür. Beləliklə Ulduz İmanovanın "Azərbaycan gəncləri" qəzetinin 12 aprel 1983-cü il tarixli sayında dərc olunmuş "Göyçədən gələn oğlan" yazısının girişindəcə oxuyuruq: *"Hərdən onun yadına Göyçə mahalı, dağlar, zirvələr, çəmənlərin təlinə taxdığı lalələr düşür. İstəyir ki, əsgəri xidmətdə olduğu kimi bu mahalın şəninə şeir yazsın. O uzaq şəhərdə 24-cü dəfə mükafat veriləndə də bir dəli həsrət onu bu yerlərə çəkmişdi. Ötən günləri, olub keçənləri xatırlamışdı. Göyçə aşıqlarının oxuduğu qoşmalar, anasının hərarətli əlləri, uşaqlığın son günləri, əzbərlədiyi ilk məhəbbət şeirləri..."*. Bəlkə ədəbi qəhrəman üçün Ulduz ilk məhəbbət şeirlərini burada təsadüfi xatırladır. Bəlkə heç yeri deyil. Amma Ulduzun özü də bir gənc olaraq, təbiətindəki təlatümləri yazısının əvvəlində bu bir neçə cümlənin içərisinə gətirə bilir. Sevginin bütün yaşlarda qəbahət olmadığı haqqındakı fikirləri inkar etmək istəməzdim. Amma sevgi, məhəbbət gənclikdə daha gözəldir. Və çox güman ki, elə Ulduz öz varlığında olan səmimiyyəti dilə gətirib. Yəni öz sevgisinin nə demək olduğunu dilə gətirib. Əlbəttə, yazıçı özünü yazırsa daha istedadlıdır. Yazıçı özünü yazdıqca, özündən aşağıda qalmış duyğuların dərinliyinə getdikcə sənətinin ucalıqlarına daha çox qalxır və həyat göstərdi ki, sözə bu yanaşma Ulduzun yaradıcılığı boyu öz qanunauyğunluğunu pozmadı. Əlbəttə, bu yazıda bir sexdən, sexin qabaqcıl işçisindən söhbət gedir. Rafiq Məmmədov adlı gəncin istehsalatdakı uğurlarından söhbət açılır. Amma yazı müəllifi, yeni gənc jurnalist Ulduz İmanova bir göyçəli gəncin taleyindən danışırsa, demək, elə Göyçənin taleyindən danışır. Ulduz yazısını bu notlarla bitirir, onun qəhrəmanı danışır. Qəhrəmanının danışdıqlarını Ulduz özünəxas tərzdə mənalandırır. Bir sözlə onun qəhrəmanı: "Azərbaycanın tarixindən, Göyçənin aşıqlarından, çölündən, çəmənlərindən, bir-birindən ayrı düşmüş həsrətli zirvələrin sirrindən, şeir yazmaq həvəsinə düşdüyündən də" danışır.

Yazı Ulduz Qasımın ilk yaradıcılıq təcrübələrindən danışırıqsa, onun düşüncə məkanına da diqqət yetirməliyik. Mətndən də göründüyü kimi müəllif sadəcə informasiya vermək məqsədi daşımır. O, çox ustalıqla Azərbaycan taleyini də yazıya gətirir. Mən deyə bilmərəm ki, Ulduz ilk gəncliyində - 24 yaşında olarkən Azərbaycanın sərhədlərindən qıraqda qalan vətənin taleyini necə düşünürdü. Konkret, aydın şəkildə Azərbaycan sərhədlərinin bərpasını mümkün hesab edirdi, ya etmirdi - bunu demək mənim üçün çətindir. Amma məsələnin bu tərəfi mənim üçün asandır ki, iddia edim, Ulduz Qasımın gənclik çağlarındakı düşüncəsində vətən taleyi bütövlüyü ilə görünür. Üstəlik, Ulduzun təsvirlərində sözün alt qatında gizlənmiş çağırışlar da hiss olunur.




Yazı adamlarının mistikadan kənar öncəgörmə missiyasını təbii qəbul etsək, Ulduzun düşüncələrinə haqq qazandırmaya bilmərik.

O vaxtkı jurnalist Ulduz İmanova, bu günkü tanınmış yazıçı Ulduz Qasım sözə gəldiyi ilk çağlardan həmyaşıdlarının diqqət mərkəzində olub. Onun haqqında tələbə yoldaşları maraqlı qeydlərlə mətubatda çıxış edirlər. Xüsusilə "Ədəbiyyat və incəsənət" qəzetində "Dəyirmi stol arxasındakı söhbətlər" mövzusunda yazdığı diplom işini elə qiymətlə müdafiə etməsi də dövrün mətbuatında mühüm xəbər kimi oxucuların diqqətinə çatdırılır.

"Mən aşığam Qarabağda" kitabında daha bir neçə yazı da diqqətimi cəlb edir. Bu yazılardan biri "Mərkəzi küçənin nağılı" adlanır.

Çox həssas bir istəklə yazılmış "nağıl"dır.

Ən başlıcası, bu günün oxucuları üçün Cəbrayılın tarixi taleyinə acı duyğularla baxış portreti təəssüratını yaradan bu qeydləri ürəkağrısız oxumaq mümkün deyil. Ən azı ona görə ki, illər boyu insan zəhməti ilə gözəlləşmiş, nurlanmış bir şəhərin bugünkü xarabalıqları gözlərimizin qabağında gözdağımıza çevrilirsə. Həmin yazının ilk sətirlərində oxuyuruq: *"Heç bir sənətin böyüyü olmayıb. Onu ancaq insan qüdrəti, istedadı, insan düşüncəsi, insan əqli böyüdüb, ucaldıb. Doğma Cəbrayılın mərkəzi küçəsi ilə addımlayanda sevinirdik. İftixarla səhər-səhər bəzənib günəşin görüşünə çıxan təpəyə baxırdıq. Bunu bizə küçədə başlanan abadlıq işləri, baş memarın dedikləri vadar edirdi. Hər il bu şəhərin abadlığına 250 min manat vəsait xərclənir. Bundan başqa rayonumuzda asfalt yollar, səkilər genişləndirilir. Küçənin kənarları mozaika ilə bəzədilir. Burada bənna Feyzullanın əlləri köməyə gəlir. İnsan barmaqları öz sözünü deyir. Onun əlləri ilə rəngli daşlardan müxtəlif fiqurlar divarlara hörülür. Belə bənnalar kitaba, dəftərə yaza bilmədiklərini divarlara nəqş edirlər. Cansız divarlarda bir ürəyin istəyini qoyub gedirlər"*. (Ulduz İmanova, Zemfira Vəliyeva, "Kolxozçu" 28 iyul, 1981-ci il). Bu imzaların daşıyıcıları universitet tələbələridir. Jurnalistika fakültəsində oxuyurlar. Yəqin ki, müəllimlərindən yay vaxtı üçün yaradıcılıq tapşırıqları alıblar.

İndi gəlirəm yazının ağrılı tərəfinə. Doğrudan da hər bir yazının salnamə olduğuna, tarixin səsi olduğuna şübhə etməməliyik. Elə Ulduzun Cəbrayıl haqqındakı doğmalıqla qələmə aldığı qeydlərin arasına sığmış duyğular bu gün tamam başqa məzmun kəsb edir. Onu da deyim ki, Ulduzun yazısının ədəbi qəhrəmanı Feyzulla Hüseynovun yaradıcı sənətinin bəhrəsi ilə gözəllik donu geymiş küçələrin görkəmini əks etdirən video-lentləri biz günümüzün kino xronikasından tez-tez görürük. Əlbəttə, indi olmayan küçədən. Əlbəttə, indi yox olmuş şəhərdən danışanda həmin görüntülərin nə qədər təsirli olduğunu duymaq, dərk etmək, zənnimcə, elə də çətin deyil.

Kitabda diqqətimi cəlb edən ikinci yazı "Arazbarı naxışları" adlanır. Doğrusu, bu yazının adını "Arazbarı naxışları" kimi oxusam da, "Azərbaycan naxışları" kimi qavrayıram. Çünki yazının təlqin etdiyi ideya, vətən elementləri başdan-başa Azərbaycan-türk etnosunun mənəvi tarixində gizlənmiş olan sirlərin açımına xidmət edir. Yazıda Cəbrayılın Arazboyu kəndlərindən söhbət açılır. Bu kəndlərdəki insanların dolanışığı, həyat tərzi, onların mənəvi mühitləri, iş-gücləri kifayət qədər dolğunluğu ilə görünür.

Bu yazı Cəbrayılda gəbəçilikdən bəhs edir. 70-ci illərdə Azərbaycan tarixi ilə bağlı tədqiqatlarda oxumuşdum ki, Cəbrayılda qıza elçi gələndə oğlanın yaxın qohumu olan, yəqin ki, oğlanın anası elçi gəldiyi qıza xəlvətcə yaxınlaşıb ondan soruşurdu: "Qızım, gəbə toxuya bilirsən?". Demək, Azərbaycanın orta əsrlərə qədərki dövründə gəbə toxumağın dəyərini, qədrini insanlar çox yaxşı bilirdilər. Xüsusilə türk etnosu üçün xalça, gəbə, palaz, kilim... xüsusi əhəmiyyət kəsb edirdi. Elə buradaca yeri gəlmişkən, deyim ki, uzaq Şərqdə pazırıq kurqanından iki min ilin o üzündə toxunmuş və indiki şərti adı "Pazırıq xalçası" olan sənət nümunəsinin tarixi Azərbaycanda xalçaçılığın həm əhəmiyyəti, həm də tarixi haqqında kifayət qədər məlumat verir. Həmin xalça eradan əvvəl Bərdədə toxunmuşdu. Çürüməməsinin əsas səbəbi də odur ki, iqlimin dəyişməsi ilə bağlı kurqana su süzülmüş və donuşuq yaranmışdır. Bir sözlə, bu gün o xalça Sankt Peterburqda Ermitajda saxlanılır.

***(Davamı 7-ci səhifədə)***

# 1. SÖZÜN BAHAR GÜLLƏRİ

*(Əvvəli 6-cı səhifədə)*

Ulduz Qasımın "Ədəbiyyat və incəsənət" qəzetində 3 fevral 1984-cü il tarixi ilə çap olunmuş "Arazbarı naxışları" adlı yazısının bədii notları haqqında danışmaq məqsədim olsa da, 40 ildən çox bundan əvvəlki zamanı yazan müəllifin öz qeydlərinə gətirdiyi etnoqrafik elementlərdən də yan keçə bilmirəm. Xüsusilə gəbələrin, xalıların adlarının çəkilməsi məndə maraq doğurur, özü də qarşısıalınmaz bir maraq. Axı Azərbaycan xalçaları, vətən xalıları türk düşüncəsinin bəhrəsi olan toxunma sənət nümunələri bu gün dünyanın müxtəlif yerlərində şəxsi kolleksiyalarda yad adlar altında nümayiş olunur. Gülbekyanın, Kələkyanın şəxsi kolleksiyalarında saxlanılan Qarabağ xalıları erməni xalçaçılığının nümunələri kimi dünyaya təqdim olunur. Məhz elə bu səbəbdən Ulduz Qasımın cəbrayıllı xalçaçı bir qadının bir günündən bəhs edən publisistik reportajı artıq tarixi bizə kifayət qədər acı dərslər keçməsindən sonra nə qədər əhəmiyyətli olduğunu dərk etməyimiz çətin deyil: *"Onun otağı kiçik bir xalça muzeyi idi. Təzə çeşniləri birinci dəfə idi görürdüm. Divarlardan "Qurama", "Göl" xalçaları ilə yanaşı, "Marallı göl", "Qarğıdalı gül", "Ceyranlı qız", "Dəstə gül" xalçaları da asılıb. Dağlar, çəmənlər öz gözəlliyi, gülü, çiçəyi ilə buraya dünya görmüş qadının boyaqlarına, ilmələrin arasına köçüb. Uzaqdakı uca dağların arasında göl görünür. Gölün qırağında, meşəlikdə bir ana maral otlayır, yanında iki balası. Ürkək-ürkək baxırlar. Göyün üzü tərtəmizdir. Yağış sovuşub. Elə bil xalçadakı uca dağların başından baxırsan bütün bunlara. Bu da "Dəsti gül". İki kiçik, bir böyük yelən salınıb. Ortada üç böyük "Dəstə gül", kiçik yelənlər narınc, böyük yelən qırmızı, orta qara rənglə toxunub. Axı qara rəngin arasında açıq rənglər daha yaraşıqlı görünür. Qızıl gül, ağ gül, nərgiz, bənövşə, yasəmən, sünbüllü gül, qərənfil, zambaq. Hərəsi bir rəng, hərəsi bir aləm. Güllərin yarpaqları açıq yaşılla toxunub. Bu çeşninin gözəlliyini daha da artırıb".* Bu cümlələr bəs edir ki, Ulduzun etnoqrafik biliyinin, xalq məişətinin, tətbiqi sənətin sirlərinə nə qədər yaxından bələd olduğunu təsəvvür edək. Mətndə "yelən" sözünə rast gəldik. Hətta "böyük yelən", "kiçik yelən" ifadələri də işlənib. Xalçaçılıqda əsas elementin, yəni mərkəzin ətrafı boyu müəyyən xətt üzərində göstərilən bəzəklər yelən adlanır. Bu da iki bir-birinə bənzəməyən bəzəklərlə hüdudlanır. Ona görə də "böyük yelən" və "kiçik yelən" ifadələri başa düşüləndir. Deməк, Ulduz xalçaçılıqdan yazanda xalçaçılığı müəyyən səviyyədə öyrənib, hətta onun öz həyatı ilə avtobioqrafik sızıntılar da bu yazıda hiss olunur. Çünki ustad xalçaçı bir vaxt elə Ulduza hələ uşaqikən xalı toxumağın sirlərini də öyrətmiş olub.

"Azarbarı naxışları"nı oxuduqca Qarabağın zəngin tarixi keçmişini yada salmamaq mümkün deyil. Həqiqətən, rəngbərəng xalçalar təkcə elə adları ilə Qarabağın cənnət misallı görkəminin unudulmaz mənzərələrini yaddaşımızda canlandırır. Elə Ulduz Qasımın bu qeydlərini ölməz edən, yaşarı edən məhz bu cəhətləridir. Cəbrayıllı bir xalçaçı qadının - Narxanım Həsənovanın öz sənətinə məhəbbəti ilə rənglənən ilmələri elə Ulduz Qasımın da təbiətini, varlığını yaşadan rənglər kimi bu qeydlərdə yenidən yazıya gəlir.

Bir gəncin qələm təcrübələrindən danışırıq. Onun cümlələrindəki mahiyyəti, dəyəri, məna yükünü bir tərəfə qoyub kimsə bu günün gözü ilə ölçü tətbiq edərsə, bu yalnız insafsızlıq olardı. Deməк, hər bir meyar sahibi zamanına görə yazıya qiymət verməlidir. Zamanına görə yazını dəyərləndirməyi bacarmalıdır. Əks təqdirdə Ulduzun bu qeydlərini sadəcə ucuz tutmaqdan başqa dəyər vermək gücü olmaz: *"Oğlan - qız" üçüncüydü. Qədim xalq əfsanəsinin təsviri. Bəlkə də heç yerdə deyilməmiş, heç yerdə yazılmamış bir əfsanə... öz sevgilisindən ayrı düşmüş oğlanın gözləri yollardadır. Qara qüvvələr onları ayırmış, sevdiyi qızdan bir xəbər gözləyir əlini həsrətlə irəli uzadıb. Sonra çöllər başlanır. Ağaclar, çəmənlər, meşələr. Qırmızıdan yaxası narınc naxışlı köynək geyinmiş gözəl qız görünür. Haradasa aşiqindən çox-çox uzaqlardadır. Onun da gözlərində həsrət, kədər var. O ümidlə başının üstündəki göyərçinə baxır. Əlindəki məktubu quşa verib ümidi bu kağız parçasına qalmış aşiqinə göndərir. Elə bil təsvir olunmuş sevgililər yolları qısaltmaq, çölləri aradan götürmək, heç olmasa bircə dəfə bir-birinə baxmaq istəyirlər".* Nə gözəl?! Gənclik duyğularının tərənnümü, sevgi hisslərinin yazı ilə üzə çıxan görüntüləri.



Ulduz Qasım "Oğlan - qız" xalçasının tərənnümü ilə əslində saf, sağlam məhəbbəti nəğmələyir. İnsan taleyinin xoşbəxtlikdən və bədbəxtlikdən keçən tərəfləri inkar olunmaz. Hər bir insanın ömür yolunda ağrı da var, acı da var, sevinc də var, şadlıq da var. Qədim sənəti yaşadan nənələr əlləri ilə saldıqları naxışlarla həyatın gözəllikləri üzərində bərqərar olduğunu çatdırmağa çalışıblar. Ulduzun bu yazısında adları çəkilən Narxanım nənənin, Nərgiz nənənin, qeyrilərinin hər biri çoxdan tarixə qovuşub. Elə Mehdili kəndinin - Ulduzun doğulub-böyüdüyü kəndin özü də artıq tarixdir. Amma insanlar gəlib-gedir, nəsillər dəyişir. Yer-yurd isə özünün əzəmi gücünü qoruyub-saxlamaqdadır.

Bərdə də Qarabağdır, Cəbrayıl da Qarabağdır. Cəbrayıl, Mirzəcanlı, Xələfli, Mərcanlı, Mehdili gəbələri bu gün Azərbaycanın, demək olar ki, hər yerində var və fəxrlə öz adı ilə saxlanılır. Ulduz məhz Qarabağda xalçaçılığın beşiyi olan bir yurddan danışır. Və bu yurdda müqəddəs tutulan xalçaçılıq sənətindən danışır. O, "Arazbarı naxışları" adlı yazısına bu cümlələrlə başlayır: *"Qoyunlu-quzulu, inəkli-camışlı, bağlı-bağatlı bir kənd. Bu el göz açandan Arazın səsini eşidib. Arazın o tayındakı Üçqardaş dağının arxasından doğan gün onları çölə, əkin-biçinə çağırıb, işə-gücə tələsdirib. Fermalara, üzüm bağlarına, kolxoz idarəsinə, məktəbə... Elə qədimdən bu kəndin adamları əməksevən olub; biçin biçib, dərz bağlayıb, mal-qara saxlayıb, xalça-kilim toxuyublar. Bu tayda çox da hündür olmayan İramə dağları sıralanıb. Həmişə də boz olur sinəsi. Boz dağların da bir cür gözəlliyi, ayrı yaraşığı var. Bütün ellərin qapısı Araza açılır, Araza baxır".* Bu yazıda Ulduz ailənin güzərından da söhbət açır. Özü də geniş həyəti, bağı-bağatı olan, gül-çiçəyə bürünmüş bu bağ-bağatın sahiblərinin kifayət qədər təminatlı güzəranını diqqətə çəkir. Əlbəttə, bunlar dövrün informasiya tələbatı kimi nəzərdə tutulur. Hətta müəllif ev sahibinin Jiqulisi olduğunu da bildirir. Doğrudur, o dövrdə bizim üçün bir ailənin bircə maşının olmağı ideal idi. Xaricə səfər etmiş adamların dilindən eşidəndə ki, ailədə hər kəsin özünün maşını var, bunu təəccüblə qarşılayırdıq. Və bu gün bu məsələlər bizim üçün artıq adiləşib. Ulduzun vaxtı ilə idealizə etdiyi ailənin güzəranı da indiki dövrlə müqayisədə çox primitivdir. Amma zamana görə, dövrə görə Ulduz Sovetlərin ən yaxşı dolanan bir ailəsindən söhbət açır. Demək, Ulduzun yazısında tarixə, zamana real münasibət əks olunur. Yazılar ona görə dəyərlidir ki, yazıldığı dövr haqqında normal, aydın təəssürat yarada bilir.

Yazı tarixə sədaqəti qoruyursa, gələcəkdə də dəyərli olur. Hətta uzaq gələcəkdə də. "Mən aşığam Qarabağda" kitabında diqqəti cəlb edən publisistik yazılar çoxdur. Ulduzun seçib sevdiyi jurnalistika sənətinin tələblərindən irəli gələn mənəvi güclə o, yeri gələndə rəssamlıqdan da danışır, istehsalatdan da yazır, teatr reportajları da hazırlayır. Dövrün gənc və istedadlı yazıçıları, şairləri ilə də söhbətə, müsahibəyə can atır.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Ulduz Qasım Cəbrayıldan ilk ali təhsilli qadın jurnalist olaraq ixtisas qazanmış yazarlarımızdandır.

Ulduzun ilk qələm təcrübələrində onun poetik duyğulanmaları ilə publisistikası elə qovuşur, elə vəhdət yaradır ki, bu mətnləri ancaq janr ayırır. Amma onun publisistik yazılarında da lirik ovqat hakimdir. Eləcə də, lirikasında həyata, təbiətə, cəmiyyətə münasibət sanki publisistik düşüncəsinin davamı kimi üzə çıxır.

İnad, qərarında israrlı olmaq yazı adamlarına xas keyfiyyətdir. Bəlkə də inad və israr olmasaydı, sözün əzablı yollarından indi böyük sənətkar kimi tanıdığımız yazarların heç çoxu keçə bilməzdi. İş burasındadır ki, xarakteri bir çox hallarda istedad istiqamətləndirir. Və istedad yəqin ki, inada və israra güc verir.

Ulduzun poetik yaradıcılığında mənəvi sarsıntılar dövrü də, hətta sevgi duyğularını yaşamaq çağı da onun şeirlərində iz qoyub. O, sevgi notları ilə süslənmiş idealını ilk şeirlərində çox ürəklə tərənnüm edir.

Sanki Ulduz ilk şeirlərində "Mən kiməm, nə düşünürəm, nəyi arzulayıram" suallarına cavab vermək istəyir.

Ulduzun ilk gənclik çağlarının duyğularını əks etdirən daha bir şeiri də oxuculara çatdırılmaq haqqına sahibdir. Çünki bu şeirdə sonsuz bir səmimiyyət, ideala qovuşmaq istəyi var. Səmimiyyət və ideala qovuşmaq istəyi sevdalı könülləri həmişə kamilləşdirmək gücündə olur. Beləliklə, onun "Olum" şeirinə də diqqət edək:

*Divarlar sıxıb könlümü,*<br>
*Çal, sinəndə sazın olum.*<br>
*Ver dərdimi əsən yelə,*<br>
*Gəlim, sənin arzun olum.*

*Daş alıbdır yazıları,*<br>
*Sən də sevdin nazlıları,*<br>
*Qov sinəndən quzuları,*<br>
*Özüm sənin quzun olum.*

*Düz sirrimi vermə yada,*<br>
*Ucaları görməz qada,*<br>
*Gəlməsə zirvələr dada,*<br>
*Heç olmasa, düzün olum...*

Bu şeir zamanında kifayət qədər nüfuzlu olan "Sovet kəndi" qəzetində 25 avqust 1981-ci ildə nəşr olunub.

Bu şeiri Ulduz Qasımın həyat məramnaməsi kimi də qəbul etmək olar. O əslində gələcək həyatını necə yaşayacağını, hansı ədəbi kriteriyalarla sözsənət adamı olacağını bəyan edir, özü də kifayət qədər poetik gücdə.

Ulduz yazı olaraq hər hansı bir mətni araya-ərsəyə gətirirsə, hiss olunur ki, qabaqcadan məlumat toplayır. Özünü obyektə, əgər belə demək mümkünsə, subyektə psixoloji cəhətdən hazırlayır. Yazacağı sahənin spesifikasını, peşə elementlərini öyrənir.

Bu bizim indiki yaşımızda hər birimizə məlumdur ki, yazıçıya aid keyfiyyətdir. Yazıçı yazmaq istədiyi obrazı nəinki göründüyü məqamı yazıya gətirməyə çalışır, hətta onun nəsil-şəcərəsini də öyrənir. Hansı mühitdə doğulub böyüdüyünü də, yerinin, yurdunun təbiətini də ən sonuncu cizgilərinə qədər bilgiyə çevirir, yaddaşına yığır.

Ona görə də Ulduzun ilk yazıları çox aydın şəkildə deyir ki, o, jurnalistika sənətini nə qədər uca və ideal bilsə də, onun hələ sözünün çiçəkburnu çağında belə jurnalist sözü yox, yazıçı sözü yazmağında qərarlı olduğu aşkar duyulur.

"Mən aşığam Qarabağda" kitabının dəyəri, qiyməti bir sənətkarın hansı bünövrə üzərində dayandığına bələdçilik etməsindədir. Yoxsa biz onun ilk qələm təcrübələri kimi nə publisistik qeydlərini, nə də şeirlərini bu qədər diqqətdə saxlamazdıq.

"Mən aşığam Qarabağda" kitabı bir cəhətinə görə də diqqəti cəlb edir. Bu kitab göstərir ki, Ulduz hələ 80-ci illərdə - heç özü də bilmirdi ki, o gələcəkdə yazıçı kimi tanınacaq, yoxsa xalçın tarixini dünya modelinə çevirə bilən romanların müəllifi olacaq. Ulduz ilk yazılarında istedadlı publisist kimi görünsə də, şairləri ilə lirik ovqat üstündə köklənsə də, daha çox təsvirləri ilə yazıçılığa meyilli idi. Onun yaradıcılığının aparıcı xətti nəsr oldu. Bu xətt onun yazılarının, hətta istehsalat yazılarının özündə belə tumurcuq vaxtında, qönçə vaxtında özünü gizlətmir.